**AZAD NƏBİYEV**
**Bakı Dövlət Universiteti**

# ÖZBƏK EPOSU – DASTANÇI VƏ DASTAN YARADICILIĞI MƏSƏLƏLƏRİ

Dünya eposunun zəngin yaradıcılıq ənənələrinə malik improvizatorçu sənətkarlar silsiləsi vardır. Öz simli kafarında[1] allahlar və ilahələr, cəngavərlər və titanlar haqqında əfsanələr, dastanlar düzüb-qoşan, silsilə himnlər, mərasim, əmək və sevgi nəğmələri çalıb-çağıran qədim yunan aedlərindən[2] başlayaraq türkün ozan, aşıq, baxşı, şair, cırçı, akın, sözçü, yüzbaşı, soki, sazandaçı, cahangirçi, xalfa, kayçı, dastançı və s. kimi peşəkar ifaçıların sırası geniş və çeşidlidir. Hər birinin də mənsub olduğu xalqın şifahi yaradıcılığında özünəməxsus yeri, ifa üslubu, sənətkarlıq ənənəsi olduğu kimi, bütövlükdə onların hər biri ümumdünya eposunun qüdrətli yaradıcıları, ifaçıları və bu sərvəti tarixin yaddaşına məharətli ötürücüləridir. Onların hər biri öz dövrünün Homeri, Canbulu, Süleyman Stalskisidir. Onların hər biri dünya eposu cərgəsində öz xalqının yaratdığı epos dəyərlərinin yerini, sırasını müəyyənləşdirən qüdrətli dastan yaradıcıları, peşəkar improvizatorçu, mahir söz ustalarıdır. Yaratdığı dəyərlər isə sivilizasiyanın yenilməz sərvətidir. Onların sırasında «İlliada», «Odisseya», «Roland haqqında nəğmələr», «Nibelunq nəğmələri», «Mahabharata və Ramayana», «Canqar», «Kalevala», «Olonxo», «Kitabi-Dədə Qorqud», «Alpamış», «Manas», «Maaday Qara», «Koroğlu», «Goroğlu», «Şahsənəm-Qərib», «Tahir-Zöhrə» və orta əsrlərin silsilə məhəbbət dastanları xüsusi yer tutur.

---

[1] Simli musiqi aləti
[2] nəğməkarlarından

V.M.Jirmunskinin təbirincə desək «ifaçılığın arxaik tipi olan» Dədə Qorqud isə eyni zamanda qəbilə ağsaqqalı, bütün işlərin bilicisi, qaibdən dürlü xəbərlər verən, «Dədə Qorqud» epik silsilənin yaradıcısı, boy boylayan, soy soyalyan oğuz bəylərinin rəşadətləri barədə oğuznamələr düzüb qoşandır. Bizim eranın VII-VIII əsrlərində ozan peşəkar ifaçılıq institununun yaradıcısı olan Dədə Qorqud həm də Məhəmməd peyğəmbər əleyhissəlamın dövründə yaşamış, oğuz epik ifaçılıq ənənəsinin yaradıcısı və onu yeni mərhələyə yüksəldən peşəkar improvizatorçudur.

XII əsrin sonu, XIII əsrin başlanğıcından yaranan yeni tarixi ictimai-siyasi şəraitlə bağlı ozan ifaçılığı yeni ifaçılıq institutu olan peşəkar aşıq ifaçılığına bütün ifaçılıq və yaradıcılıq ənənələrini saxlamaqla rekonstruksiya edilmiş, XIII əsrin əvvəllərindən başlayaraq Yunis İmrə və Molla Qasım yaradıcılıq ənənələrinin çarpazlaşması nəticəsində iki qüdrətli aşıq məktəbi – Anadolu və Şirvan peşəkar aşıq məktəbləri meydana gəlmişdir. Sonrakı dövrlərdə aşıq ifaçılığı ənənələrinin bütün Azərbaycana yayılması nəticəsində fərqli ifaya və yaradıcılıq üslublarına məxsus Təbriz və Göyçə aşıq məktəbləri meydana çıxmış, onların ayrı-ayrı mühitləri formalaşmışdır.

Azərbaycan aşıq məktəblərinin peşəkar improvizatorçu və ifaçı sənətkarlarının – Yunis İmrənin, Molla Qasımın, Aşıq Köçərin, Dədə Yedgarın, Abbas Tufarqanlının, Xəstə Qasımın, Aşıq Abdullanın, Qurbaninin, Aşıq Valehin, Aşıq Ələsgərin, Xaltınlı Tağının, Aşıq Rəcəbin, Molla Cümənin, Aşıq Bilalın, Aşıq Hüseyn Bozalqanlının, Aşıq Mirzənin, Aşıq Əsədin, Aşıq Abbasın, Aşıq Bəylərin, Aşıq Şakirin, Aşıq Əhmədin və onlarla başqa ifaçı sənətkarın adı xalq arasında bu gün böyük məhəbbətlə çəkilir. Bu qüdrətli ifaçı sənətkarların yaradıcılıq dühası sayəsində 70-dən artıq saz havası, onların çoxsaylı variantları törəmiş və xalqın bu yaradıcılıq qüdrəti bu yaxınlarda

YUNESKO tərəfindən yüksək qiymətləndirilərək dünya xalqlarının qorunan qeyri-maddi mədəni irsi siyahısına daxil edilmişdir.

Türk xalqlarının peşəkar ifaçılıq sənəti tarixində ozan və aşıq yaradıcılığı ilə müvazi şəkildə qoşa qanad kimi yaşayıb yüksələn, bir çox ənənə və üslub etibarı ilə eyni qaynaqdan bəhrələnən baxşı səntəi də dünya epik ənənəsinin əski çağlarında formalaşan ifaçılıq və improvizatorçuluq zəmininə söykənir. Çox təəssüf ki, ozan və aşıq ifaçılıq ənənəlri kimi, uzun zaman kəsimində özbək baxşı və dastançılarının qüdrətli yaradıcılıq ənənələri də əsaslı şəkildə öyrənilməmiş, onların yüksək sənətkarlıqla yaratdıqları cəngavərlik, alplıq, eləcə də epik-romantik məhəbbət süjetləri yazıya alınıb nəşr edilməmişdir. Halbuki özbək peşəkar söz ustlarının, dastançı şair və baxşılarının uzun yüzilliklər ərzində qoşub-düzdükləri etik-estetik və mənəvi-əxlaqi cəhətdən dolğun, dünyəvi və bəşəri dəyərləri özündə əks etdirən poetik yaradıcılıq nümunələrində bu xalqın ən yüksək idealları öz əksini tapmışdır. Bu nümunələrdə özbək xalqının qəbilə və tayfa dövrü həyatının ən müxtəlif görüşləri, adət-ənənələri, milli məişəti, mərasim və etiqad dünyası, erkən birlik və dövlətçilik ənənələri, eləcə də vətən, torpaq uğrunda yenilməz azadlıq mübarizəsi özünü yüksək şəkildə qoruyub saxlamışdır.

Bütün bunlar isə müxtəlif dövrlərdə yaşayıb yaradan özbək nəğməkarlarının, dastançı şair və baxşılarının peşəkar ifaçıların repertuarında zaman-zaman cilalanaraq, yeni-yeni söyləmələrə, improvizələrə məruz qalaraq günümüzə qədər gəlib çatmışdır. Özbək xalqının qədirbilən övladları bu zəngin irsi ötən əsrin başlanğıcından daha böyük diqqət və qayğı ilə yazıya alıb nəşr edərək müxtəlif istiqamətli tədqiqatlara cəlb etmişlər. Özbək folklorşünaslığının banisi, mənim böyük müəllimim və ölməz ustadım Hadi Zərifovun çoxillik fəaliyyəti sayəsində özbək folklorşünaslıq elmi-nəzəri məktəbi yaranmış, onun ardıcılları

və davamçılarının xidməti sayəsində bu məktəb özbək folklorşünaslarının ən aktual problemlərini yüksək elmi-nəzəri standartlarını yaratmışlar. Bu yaxınlarda isə özbək folklor məktəbinin ardıcıl davamçılarından, türk folklorunun şöhrətli araşdırıcılarından olan filologiya elmləri doktoru, professor Tura Mirzayevin öbək eposunun aktual bir probleminə həsr edilmiş «Эпос и сказитель» adlı yeni monoqrafiyası işıq üzü görmüşdür (Özbəkistan Elmlər Akademiyası, «Fənn» nəşriyyatı, Daşkənd, 2008, 409 s.). İlk öncə qeyd etmək lazımdır ki, monoqrafiya türk xalqları folkloruna yeni yanaşma olub özbək eposunu sənətkarlıq və poetik ifaçılıq baxımından öyrənmək sahəsində uğurlu təşəbbüslərdən olub bu sahədə akademik V.M.Jirmunski və H.T.Zərifovun parlaq xatirəsinə həsr edilmişdir.

Yüksək elmi-nəzəri səpgidə yazılmış tədqiqat işi özbək dastan yaradıcılığı, dastançılıq ənənəsi, baxşı repertuarı və peşəkar improvizatorçuluq sənətinin bir çox aktual məsələlərini əhatə edir. Monoqrafiyanı «Özbək xalq dastançılarının sənətkarlığı və epik repertuar» adlı ilk fəslində müəllif özbək eposunun yaranması, bu yaradıcılıq prosesində dastançı, baxşı və şairlərin rolu, onların sənətkarlıq ənənələri və üslubları dastançı epik repertuarının başlıca xüsusiyyətləri kimi çox mühüm məsələləri improvizatorçu sənətkarlarının ifaçılıq məharəti kontekstində götürür. Baxşı sənətinin soxəsrlik tarixinə nəzər yetirir, onun formalaşma və inkişaf mərhələləri üzərində dayanır. Bu sənətin özbək xalqının tarixi, mədəni yüksəliş mərhələləri ilə əlaqəsi barədə bəhs edir, onun özbək ictimai-siyasi ədəbi fikri tarixindəki yeri üzərində dayanır, ciddi faktlara söykənərək bu tarixin mükəmməl elmi-nəzəri mənzərəsini verir. Yaxşı cəhətdir ki, T.Mirzayev bu gün Müstəqillik dövrünü yaşayan özbək xalqının zəngin dastançılıq ənənələrini özbək xalqının mədəni inkişafında mühüm mövqeyi olan özbək xalq dastançıları və dastançı ədəbi

məktəblərinin adı ilə başlayır. Özbək xalqının qədim dövr tarixinin dərin qatları ilə bağlı milli mədəni dəyərlərin dastançılıq ənənələri ilə yanaşı, improvizatorçu sənətkarların peşəkar ifaçılıq məharəti ilə sıx bağlı olduğunu göstərir.

Monoqrafiyada peşəkar özbək dastançılarının hər birinin özünə məxsus fərdi ifaçılıq üslubunu və özbək dastançı ədəbi məktəblərinin bütövlükdə özbək ədəbi fikrinin yüksəlişindəki yerini müəyyənləşdirən müəllifin bu tədqiqatı əslində özbək dastançılığının sənətkarlıq baxımından formalaşmasına özbək folklorşünaslığının yeni baxışıdır. Yaxşı cəhətdir ki, Tura Mirzayev öz sələfi H.T.Zərifovun «dastan yaradıcıları məktəbi» terminini yeni şəraitdə daha da inkişaf etdirərək onları təkcə kurqan və bulunqur baxşı məktəbləri kimi deyil, özbək xalq dastançılığının geniş ifaçılıq çevrəsində götürür və Özbəkistanda mövcud bütün qüdrətli ifaçılıq ocaqlarını dastançılıq məktəbləri kimi təqdim edir. Müəllif haqlı olaraq yazır: «Çoxillik ekspedisiya materialları göstərir ki, Özbəkistanın bir çox rayonlarında dastançı məktəbləri – dastan söyləyicilərinin gözəl mərkəzləri mövcud olmuşdur. Bu məktəblər həmin ərazilərdən çıxan aparıcı dastançıların adı ilə – Bulunqur, Kurqan, Nurata, Şəhrisəbz, Narnay, Şerabad, Kamay, Pskent, Kullukan və başqa adlarla adlandırılmışdır». Təbii ki, bu adlandırma tamamilə şərtidir, çünki dastançı məktəbləri həmin ərazilərdən çıxan dastançıların adı ilə bağlıdır və onların hər birinin özünəməxsus yaradıcılıq üslubu olduğu kimi, hər birinin fərdi sənətkarlıq məharəti, dili, üslubu və ifa tərzi vardır.

Özbək dastançı məktəblərinin sənətkarlıq xüsusiyyətlərinin öyrənilməsində üsusi xidmətləri olan T.Mirzayev tədqiqat işində haqlı olaraq yazır ki, dastançı məktəblərinin biri-birindən fərqləndirən cəhətlərin hər bir dastançı məktəbi üzrə öyrəNilməsinə xüsusi ehtiyac vardır. Dastançı məktəblərinin repertuarı

bir-birindən fərqli prinsiplər əsasında formalaşdığı kimi, janr, dil və üslub baxımından da fərqli poetik vahidlər toplumu yaradır və hər bir dastançı məktəbi özünün repertuar ənənəsinə görə improvizatorçuluq məharəti nümayiş etdirir. Bu, türk xalqları folklorunun nəşri və tədqiqi sahəsində çox mühüm ölçü meyardır. Bu meyarın pozulması bir çox xalqların folklor nəşrlərinin mətn tərkibini fərqləndirən xaotik mənzərə yaradır, mətnin region, dil, üslub və dialekt xüsusiyyətlərinin, repertuar fərqlərinin müəyyənləşdirilməsinə, bütövlükdə isə xalqların folklor yaradıcılığını yanlış istiqamətdə öyrənilməsinə aparıb çıxarar.

Azərbaycan aşıq məktəbləri ilə özbək dastançı məktəbləri üçün məhz bu baxımdan bir sıra tipoloji uyğunluqlar mövcuddur ki, ifaçı və improvizatorçu məktəblərin sənət və sənətkarlıq məsələlərinin açıqlanması və öyrənilməsində bu tipoloji uyğunluqlar çox mühüm rol oynaya bilər. Vaxtilə H.T.Zərifovun özbək folklorunun poetik strukturunu müəyyənləşdirməyə yönəlmiş tədqiqat istiqamətlərinin bu gün davam etdirilməsi, A.N.Veselovski və V.Y.Proppun tədqiqat metodlarının özbək folklorşünaslığında yeni şəkildə davam etdirilməsi, şübhəsiz ki, özbək xalq dastançıları və dastançı məktəblərinin hər birinin bütöv yaradıcılıq və ifaçılıq institutu kimi ümumtürk və ümumdünya eposçuluğunda əzəmətli yerini müəyyənləşdirməyə imkan verəcəkdir.

Monoqrafiyanın ikinci fəsli özbək «Alpamış» dastanı və onun variantlarının, eləcə ifaçı sənətkarlarının yaradıcılıq problemlərini əhatə edir. Müəllif tədqiqatının əvvəlində haqlı olaraq yazırdı ki, «xalq eposlarının müqayisəli-tarixi tədqiqi ən mühüm vəzifələrdən biridir». İndiki müasir şəraitdə hələ əksər xalqlar öz canlı şifahi ənənələrini davam etdirdiyi, xalq yaradıcılığını yeni istiqamətdə öyrəndiyi, bir vaxtda milli eposları elmi-nəzəri araşdırmalara daha fəal cəlb etməyin böyük əhəmiyyəti vardır. Təbii

ki, türk xalqlarının epik yaradıcılıq ənənələrinin, sənətkarlıq xüsusiyyətlərinin müqayisəli şəkildə tədqiqi müəyyən tarixi zaman kəsimində onların tarixi birliyinin bir çox mühüm cəhətlərini üzə çıxarmağa imkanlar açır. Özbək xalqının «Alpamış» eposu da bu tədqiqat yoluna işıq saçan ölməz bahadırlıq eposlarından biridir. Türk xalqları içərisində onun bir çox süjet, motiv, obrazları müxtəlif dastançıların ifa repertuarında çeşidli variantlarda yayılmışdır. Bu gün «Alpamış»ın hər bir variantının fərqli istiqamətlərdə araşdırılması bütövlükdə ümumutürk eposunu öyrənməyə aparan yolun başlanğıcıdır. T.Mirzayevin «Alpamış»la bağlı çoxillik uğurlu axtarışları özbək eposunun müxtəlif variantlarının yeni sənətkarlıq və poetik dəyərlərini öyrənməyə imkan vermişdir. Bu da müəllifin doğma eposuna yeni yanaşma yollarındakı axtarışlarının nəticəsi kimi çox dəyərli olub eposşünaslıqda uğurlu təşəbbüs kimi dəyərləndirilməlidir.

Monoqrafiyanın axırıncı bölməsində professor Tura Mirzayevin son vaxtlarda özbək folklorunun aktual problemlərinə həsr etdiyi məqalələrinin bir dəsti təqdim edilmişdir. Onlar içərisində «Şair-dastançı», «Özbək xalqının yazılı ədəbiyyatının dastan yaradıcılığına təsiri», «Alpamış və «Alıp-Manas dastanlarının müqayisəli tədqiqinə dair, «Özbək dastançı məktəbləri», «Özbəkistanın xalq poeziyası» və başqaları özbək folklor nəzəri fikrini öyrənmək üçün çox dəyərli qaynaqlardır.

Ümumilikdə professor Tura Mirzayevin «Epos və dastançı» monoqrafiyası türk xalqlarının epik yaradıcılığında, dastançı və dastan problemlərini, poetik ifaçılıq ənənələrini və üslublarını, dastançı məktəbləri, folklor mətnlərinin ən müasir tələblər əsasında nəşrə hazırlamaq, araşdırmaq məsələləri barədə mükəmməl məlumat verən, folklorşünaslır üçün faydalı bir tədqiqat əsəridir.